UOT 371

***Fəridə Oktay qızı Səmədzadə,***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

## VALİDEYNLƏRİN VƏ TƏRBİYƏÇİLƏRİN AİLƏ ƏNƏNƏLƏRİNƏ MÜNASİBƏTİ

***Фарида Октай гызы Самедзаде,***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

## ОТНОШЕНИЕ РОДИТЕЛЕЙ И ВОСПИТАТЕЛЕЙ К СЕМЕЙНЫМ ТРАДИЦИЯМ

***Farida Oktay Samadzade,***
*doctorial student in the program of doctor of philosophy*
*İnstitute of Education of the Republic of Azerbaijan*

## ATTITUDES OF PARENTS AND CAREGIVERS TO FAMILY TRADITIONS

**Xülasə.** Uşaqların ailə ənənələrinə olan münasibətinin formalaşmasında valideyn və tərbiyəçin rolu son dərəcə böyükdür. Ailə insan həyatının daxil olduğu ilk ictimai mühit olsa da, uşağın məktəbəqədər müəssisəsinə getməsi ilə bu mühit genişlənir və onun şəxsiyyətinin formalaşmasında həlledici rol oynayır. Evdə valideynlər məktəbəqədər müəssisələrdə isə tərbiyəçilər uşaqların hərtərəfli inkişafı üçün çalışan əsas ilk və əsas şəxslərdir.

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaqlar, ailə ənənələri, uşaq tərbiyəsində valideyn və tərbiyəçinin rolu, hörmət hissinin aşılanması*

**Резюме:** Роль родителей и воспитателей в формировании у детей отношения к семейным традициям чрезвычайно важна. Хотя семья является первой социальной средой, в которую входит человеческая жизнь, она расширяется по мере того, как ребенок посещает дошкольные учреждения, и это играет решающую роль в формировании его или ее личности. Родители дома и воспитатели в дошкольных учреждениях являются первыми и главными людьми работающие над всесторонним развитием детей

***Ключевые слове:*** *дошкольники, семейные традиции, роль родителей и воспитателей в воспитании детей, привитие чувства уважения*

**Summary:** The role of parents and educators in shaping children's attitudes to family traditions is extremely important. Although the family is the first social environment in which human life enters, it expands as the child attends preschool and it plays a crucial role in shaping his or her personality. Parents at home and educators in preschools are the first and foremost people working for the comprehensive development of children.

***Keywords:*** *preschool children, family traditions, the role of parents and educators in the upbringing of children, instilling a sense of respect*

Məktəbəqədər yaşlı uşaqlara ailə ənənələrinə hörmətli münasibətin aşılanması, onların şəxsiyyətinin inkişaf etdirilməsi mühüm məsələdir. Bu əsaslarla böyüyən uşaqlar ailə ənənələrini tam şəkildə mənimsəyir və davam etdirməyə, gələcək nəsillərə çatdırmağa səy göstərirlər. Bu işdə valideyn və tərbiyəçilərin rolu son dərəcə mühümdür.

Bu məsələnin tədqiqatı ilə bağlı valideynlər və tərbiyəçilərlə söhbət edərkən onların bəziləri “uşaqlarla bu barədə söhbət aparmaq tezdir”, “Onlar hələ uşaqdır”, “Onlar hələ belə şeyləri başa düşmürlər.” və s. bu kimi fikirlər səsləndirirlər. Bəziləri bu qənaətdə idilər ki, ailə haqqında olan təsəvvürləri uşaqlara məktəbəqədər yaşda deyil, ən tez məktəbə getdikdən sonra

formalaşdırmaq lazımdır. "Bu yaşda olan uşaqlar yalnız oynamaq, məktəbə getmək haqqında düşünməlidir". Düzdür, bu cür düşünən valideyn və tərbiyəçilər çox deyildi. Lakin bu tərzdə düşünən valideyn və tərbiyəçilərin olması bizə tədqiqatın onlardan asılı olan tərəflərin əsaslı şəkildə tədqiq etməyə sövq etdi.

Valideyn və tərbiyəçi unutmamalıdır ki, uşaqların dünyagörüşü, həyat haqqında məlumatları məhdud olsa da, onların ətrafda baş verən proseslərə marağı, öyrənmək istəyi çoxdur. Onlar gördükləri, eşitdikləri şeylərin mahiyyətini bilmək istəyirlər.

Bu baxımdan tədqiqatın uğurlu nəticə verməsi üçün ilk növbədə valideyn və tərbiyəçilərin ailə ənənələrinə münasibətini öyrənməyi lazım gəlir. Çünki valideyn və tərbiyəçi nəyi təbliğ edirsə, necə düşünürsə, uşaq da onun düzgün olduğunu qəbul edir və mənimsəyir. Ailə ənənələrinin aşılanmasında da valideyn və tərbiyəçilərin şəxsi nümunəsi həlledici rol oynayır. Onların özlərinin ailə ənənələrinə hörmət hissi ilə yanaşması, uşaqlara da bu hisslərin aşılanmasına səbəb olacaqdır.

Tədqiqatlardan görünür ki, ailə ənənələrinin aşılanması prosesi istər ailədə istərsə də məktəbəqədər müəssisələrdə biliklərin sistemsiz və zamansız formada aparıldığı üçün bu iş uşaqlarda arzu olunan səviyyədə formalaşmır. Ailə ənənələrinin məktəbəqədər yaşlı uşaqlara lazımi səviyyədə aşılanması üçün hər iki tərəfin qarşılıqlı şəkildə bir-birinə yardımçı olması lazımdır. Sadəcə tərəflərin hər işdə olduğu kimi bu işdə də bir-birini dəstəkləməsi son dərəcə vacibdir.

Valideyn və tərbiyəçilərə məktəbəqədər yaşlı uşaqlarda ailə ənənələrinin aşılanması üzrə tədqiqatın məzmununa uyğun bir neçə vəzifəni əsas götürülməlidir:

1.Valideyn və tərbiyəçilərdə ailə ənənələrinin haqqında təsəvvürlərin genişləndirilməsi.

2.Uşaqlara ailə ənənələrinin aşılanmasının imkanlarının və səmərəli yollarının valideyn və tərbiyəçilərə aydınlaşdırılması.

3.Sorğunun nəticəsinə əsasən, ortaya çıxan problemlərin həllinə dair valideyn və tərbiyəçilərlə görüş və müzakirələrin keçirilməsi.

Uşaqlarda mənəvi keyfiyyətlər, dövlətçiliyə sədaqət, əsl vətəndaş kimi mühüm keyfiyyətlərin formalaşaması ilk öncə valideynlərinə daha sonra isə, məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçilərin ən ülvi məqsədidir. Bu işin təməli ailədə qoyulur. Ailə tərbiyə işlərini apararkən səbirli, inamlı və nikbin olmalıdır. Tərbiyə işi mürəkkəb və uzunmüddətli bir prosesdir. Bu işin metodikasına bələd olmaq uşağın fərdi, cinsi, yaş xüsusiyyətlərini bilmək, temperament tipini düzgün müəyyənləşdirmək lazımdır. V.A. Suxomlinski deyirdi: *"Mənim həyatımda ən başlıca cəhət nədir? Düşünmədən, fikirləşmədən deyirəm: uşaqlara məhəbbət"* [1, s. 42] Həqiqətən də, məktəbəqədər yaşlı uşaqlarla aparılan işlərin təməlində saf sevgi və inam dayanır. Uşaqlar dünyaya ilk olaraq valideyn və tərbiyəçilərin gözündən baxırlar. Odur ki, onların uşaqlara verdikləri nəsihətlərə, cəlb etdikləri fəaliyyətlərə və aşıladıqları dəyərlərə ilk növbədə özləri inanmalı və hörmət etməlidir, daha sonra bunu uşaqlardan tələb etməlidirlər.

Ailə ənənələri də bu şəkildə nəsildən nəslə ötürülərək yaşadılmış, bu günümüzə gəlib çata bilmişdir. Bəziləri isə sonrakı nəsil tərəfindən davam etdirilməmiş və unudulub getmişdir. Buna görə də valideyn və tərbiyəçilərin bu məsələyə münasibəti son dərəcə mühümdür.

Təkidlə qəbul etdirilməyə çalışılan davranışlar uşaqlar tərəfindən böyük etirazla qarşılanır. Bu təkidlər getdikcə nifrətə belə çevrilə bilir. Uşaqlarla tərbiyə işlərində məcburiyyət yolverilməzdir. Uşaqlar könülsüz şəkildə hər hansı bir fəaliyyəti icra edə bilərlər, lakin heç vaxt ona hörmətli münasibət göstərməyəcəkdir. Bu baxımdan valideyn və tərbiyəçilər problemə böyük ustalıqla yanaşmalıdırlar. Valideynin özünün sevdiyi fəaliyyət yox, uşağın sevdiyi bir işi ona tapşırmaq lazımdır. Uşaq ona verilən tapşırığı öz istəyi və həvəsi ilə edərlərsə, bu onların sevdikləri fəaliyyət sahəsinə çevriləcəkdir.

Uşaqlar ailə ilə birgə görülən işi xoşlayırlar. Bu zaman onlar özlərini dəyərli bir varlıq kimi hiss etməyə başlayırlar. Uşaqlıqdan düzgün, sistemli şəkildə aşılanan ənənələr onlar tərəfindən tərəddüdsüz şəkildə qəbul olunur. Onlar öz istək və arzuları əsasında icra etdikləri fəaliyyəti buraxmayacaq, hər daim onu icra edəcəklər. Bu prinsiplərlə əsas götürülərək ailə ənənələri aşılanarsa biz istədiyimiz məqsədə çata bilərik. Uşaqların könüllüklə ailə ənənələrinə qoşulması, onlarda hörmət hissinin aşılandığının bariz nümunəsidir.

Y.A. Komenski tərbiyəçi-uşaq münasibətlərinə yüksək qiymət verirdi. Ailədən kənarda baş verən bu ilk münasibətlər uşaqların həyatında həlledici rol oynayır. Y.A. Komenski tərbiyəçilərə uşaqlarla ədalətli, xeyirxah münasibətdə olmağı, mülayim tərzdə ünsiyyət qurmağı, "*döymədən, nalə qoparmadan, nifrət doğurmadan, bir sözlə gülərüz və həzzlə elm badəsini necə içirməyi tövsiyə edirdi.*" [3, s. 276] Bu işin təşkilində də həm valideynlər həmdə tərbiyəçilər uşaqlara onların doğru yolda irəlilədiklərini, ailə ənənələrini davam etdirməyin ən doğru seçim olduğunu hiss etdirməlidirlər. Onlar nəinki söz və şəxsi nümunələri ilə eyni zamanda jest və mimikaları ilə bu uşalara hiss etdirməlidirlər.

Pedaqoji və psixoloji biliklərə yiyələnən valideyn və tərbiyəçi uşaqların şəxsiyyət kimi formalaşmasında ailə ənənələrinin rolunu yüksək qiymətləndirir. Tədqiqat, müşahidə və sorğulardan görünür ki, sağlam ailə mühiti uşaqların ailə və onun ənənələrinə hörmət bəsləyəmələri gələcəkdə onların uğursuzluqlara qarşı daha dözümlü olmaların şərait yaradacaqdır. Uşaq tərbiyəçiyə və onun sözlərinə valideynləri qədər inanmalıdırlar. Hər iki tərəfin uşaqlar üzərindəki təsir gücü demək olar ki, eynidir. Uşağa valideynləri tərəfindən aşılanan dəyərlərin tərbiyəçilər tərəfindən də dəstəklənməsi onların inancını və etimadını iki qat artırır.

Tərbiyəçi uşağın ürəyinə yol tapmalıdır. Öyrədən və öyrənən arasında səmimi münasibətlər olarsa, tərbiyəçi və valideynlərin səyləri səmərəsiz qalmayacaqdır. Uşaqların gələcəyə olan baxışının formalaşmasında ailə qədər tərbiyəçilər də mühüm rol oynayır. Onlar ilk növbədə uşaqların fərdi xüsusiyyətlərinə bələd olmalıdırlar. Tərbiyəçilər uşaqlarla apardıqları iş prosesində hər zaman nikbin ruhda olmalı və istədikləri nəticəni alacaqlarına inanmalıdırlar. Uşağın tərbiyəçinin yanından evə həvəslə gedib növbəti gün yenidən eyni həvəslə bağçaya qayıtması üçün lazım olan bütün səyləri göstərmək lazımdır. Bu işin kökündə heç bir zaman qorxu olmamalıdır. Tərbiyəçi və valideynlərlə birgə görülən iş uşaqların ən sevimli fəaliyyəti olmalıdır. Uşaq onlarla görülən işdən zövq almalıdır.

İşin səmərəli təşkili üçün tərbiyəçinin ailənin psixoloji iqlimi ilə tanış olması, uşağın ailədə ki, mövqeyini bilməsi və ailə ənənələrinin aşılanmasında ailənin digər üzvlərinin bu məsələyə baxışını müəyyənləşdirməsi mütləqdir. Bu zaman onlar ailənin uşağa yanaşma tərzinə yaxından bələd olurlar. Uşağın ailə daxilində olan davranışı ilə uşaq bağçasında olan davranışı arasındakı fərqlər və ən əsası onlara aşılanan dəyərləri evdə davam etdirib-etdirməməsini müşahidə edə bilərlər. Bu da valideyn və tərbiyəçi əməkdaşlığının sözdə yox, əməldə necə olması barədə aydın təsəvvür yaranmasına səbəb olur. Hər iki tərəfin bir-birinin iş prinsipini bilməsi bu işi təşkilini daha da asanlaşdırır.

Böyüyən nəslin yetişdirilməsində və ailə ənənələrinin yaşadılmasında qarşıya qoyulan hədəfə çatmaq üçün hər iki tərəf bir-birinin mövqeyinə hörmət etməli, bir-birini tamamlamalıdır. Bu işi görən zaman tərəflər bütün məsuliyyəti qarşı tərəfə yükləməməlidir. Təcrübə zamanı belə hallarla qarşılaşdıq. Valideynlər övladının uşaq bağçasına getməsi ilə öz işlərini bitmiş hesab edirlər. Bütün məsuliyyəti tərbiyəçinin üzərinə atırlar. Bu zaman onlar öz məsuliyyətlərindən özləri də dərk etmədən boyun qaçırmış olurlar. Bunu da vaxt məhdudiyyəti ilə izah edirlər. Həmin valideynlərin uşaqlarında çəkingənlik, fikrini aydın ifadə edə bilməmək, mövzu barədə təsəvvürlərin çox zəif olmasını müşahidə olunur. Valideyn məsuliyyətsizliyindən yaranan bu problem uşaqlarda bir növ mənəvi şikəstliyin meydana gəlməsinə imkan verir. Nəticədə onlar cəmiyyət qarşısında məsuliyyətlərini də yerinə yetirməmiş olurlar. Bu kimi hallar gələcəkdə uşaqlarda yaranacaq bir çox problemlərin başlanğıc səbəbidir. Uşaqlarda yaranan bu mənəvi boşluğu sonradan doldurmaq qeyri mümkündür. Bu kimi halların yaranmaması üçün valideyn və tərbiyəçilər uşaqlara lazımı qayğı və diqqətin vaxtında ayrılması mütləqdir.

Məktəbəqədər yaşlı uşaqlar da ailə ənənələrinə hörmət hissinin aşılanmasında məktəbəqədər müəssisələrin də böyük rolu vardır. Bu adətən məşğələdənkənar tədbirlər zamanı həyata keçir. Uşaqlarda ailə ənənələrinə hörmət hissinin inkişaf etdirilməsində öncədən seçilmiş əsərlərin onların mənəvi aləminə, əxlaqına nə dərəcədə təsir göstərəcəyi müəyyənləşdirilməlidir. Fəaliyyətin məqsəd və məzmunu aydın olmalı bədii əsərlər seçilməli, işin səmərəli metodlardan faydalanmaq lazımdır.

**Problemin aktuallığı:** Müasir dövrdə ailə və məktəbəqədər müəssisələrdə uşaqlarda ailə ənənələ-

rinin aşılanmasında qarşılaşdıqları problemlərlə aktuallıq təşkil edir.

**Problemin yeniliyi və praktik əhəmiyyəti:** Məqalədə təqdim olunan materiallar ailə və məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçilərin uşaqlarda ailə ənənələrini aşılaması mövzusunda bir sıra problemlərin həllində yardımçı ola bilər.

**Ədəbiyyat:**

1. H. Əliyev. Ailə və məktəb ənənələri sağlam nəsil tərbiyə edir. Bakı, 1988.
2. Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə: Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik. Bakı: Maarif, 1989.
3. Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1989.
4. A.N. Abbasov. Milli əxlaq və ailə etikası: universitetlər və kolleclər üçün dərslik. Bakı: Mütərcim, 2015.

**E-mail:** feridesemedzade@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 09.02.2021